*Yeni dövr Azərbaycan ədəbiyyat şöbəsinin əməkdaşları* 2018-ildə 1 kitab, 2 monoqrafiya, 53 məcmuə məqaləsi, 24 qəzet məqaləsi, 7 tezis, o cümlədən xaricdə 1 monoqrafiya, 10 məqalə, 6 tezis, impaktaktorlu  jurnalda 2 məqalə, 5 elmi-kütləvi əsər çap etdirib.

Şöbənin əsas tədqiqat problemi «Mirzə Fətəli Axundzadə Ensiklopediyası»nın hazırlanması olub. Şöbənin kollektiv işi olan «Əbdürrəhim bəy Haqverdiyevin həyatı və yaradıcılığı» monoqrafiyası  çapdan çıxıb. Nəşrin ön söz müəllifi İsa Həbibbəyli, rəyçisi AMEA-nın müxbir üzvü Tehran Əlişanoğlu, elmi redaktoru Zaman Əsgərli, məsul redaktoru f.ü.f.d. Aygün Bağırovadır.

Kitab AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda «Yazıçıların həyatı və yaradıcılığının tədqiqinə yenidən qayıdış» layihəsi əsasında yazılmış ilk monoqrafik tədqiqatdır. Monoqrafiyada məşhur yazıçı və ictimai xadim  Əbdürrəhim bəy Haqverdiyevin həyat və yaradıcılığı təhlil edilib. Ədibin ömür yolu, ictimai fəaliyyəti və yaradıcılığının əsas sahələri: dramaturgiyası, bədii nəşri, publisistikası, ədəbi görüşləri, habelə, bədii sənətkarlığı, əsərlərinin tədqiqi və nəşri tarixi haqqında əhatəli elmi informasiya verilib. Monoqrafiyadan elmi işçilər, magistlər, doktorant və tələbələr, ədəbiyyat fənnini tədris edən müəllimlər faydalana bilər.

*Prof. Alxan Məmmədov (Bayramoğlu)* 2018-ci ildə «Azərbaycan Cümhuriyyəti dövründə dramaturgiya» («Ədəbiyyat qəzeti», 26 may 2018), «Abdulla bəy Divanbəyoğlunun bədii nəsri» («Azərbaycan» №3, 2018), «Azərbaycan Cümhuriyyəti: tarixi, siyasi və ədəbi-kulturoloji müstəvidə», «Azərbaycan Cümhuriyyəti dövründə publisistika» (tərtib edəni, elmi redaktoru və ön söz müəllifi prof. Vaqif Sultanlı). Bakı, «Nurlan», 2018), «İstiqlalın özü və sözü. Azərbaycan Cümhuriyyəti dövründə ədəbi hərəkat» («Azərbaycan», 2018, №5) «Azərbaycan Xalq Cümhuriyyəti – 100» münasibətilə «Məhəmməd Hadinin həyatı və cümhuriyyət dövrü yaradıcılığı» (Bakı, «Elm və təhsil», 2018), «Azərbaycan Xalq Cümhuriyyəti Şərqin ilk demokratik dövlətidir». Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilmiş Elmi Konfransın materialları (23-24 may 2018, Gəncə), «Azərbaycan Xalq Cümhuriyyətində ordu quruculuğu və ədəbiyyat», «Əhməd Cavadın «Yeni böhran» adlı məqaləsi» («Ədəbiyyat qəzeti», 9 iyun 2018), «Abdulla Tofiq Sur erməni seperatizmi haqqında». «Jurnalistika» («Elm və təhsil», 2018, №8), «Azərbaycan Cümhuriyyəti dövründə publisistika» («Ulduz», 2018, №6), «Bakıxanovşünaslığı zənginləşdirən monoqrafiya» («Ədəbiyyat qəzeti» 15 sentyabr

2018), «Dövlət müstəqilliyimizin qarantlarından biri – Bakı Dövlət Universiteti» («Jurnalistika» 2018, №9).

*F.e.d, Baba Babayevin* 17 məqalə, 1 kitab və 1 monoqrafiyası nəşr olunub. Onun «Ədəbi etüdlər» kitabının (Bakı, Avropa, 2018, 188 s.) elmi redaktoru f.ü.f.d. Bəsirə Əzizəliyeva, rəyçisi f.ü.f.d. İlham Məmmədlidir. İctimai-siyasi, ədəbi-mədəni, elmi fikir tariximizin görkəmli simaları haqqında məqalələr toplusunda alimin elmi konfranslardakı çıxışları, jurnal və qəzet məqalələri özünə yer alıb.

Müəllifin «Abdulla Şaiqin nəsr yaradıcılığı (Bakı, «Avropa», 2018, 152 s.) monoqrafiyasının elmi redaktoru akad. İsa Həbibbəyli, rəyçisi f.e.d. Cavanşir Yusiflidir. Monoqrafiyada yazıçı, şair, dramaturq, tərcüməçi və pedaqoq Abdulla Şaiqin nəsr yaradıcılığı, onun sənətkarlıq xüsusiyyətləri aydınlaşdırılıb. Monoqrafiya 1999-cu ilin nəşri əsasında təkrar çapdan çıxıb.

*F.ü.f.d. Elmira Qasımova* 2018-ci ildə «Ə.Haqverdiyevin dram əsərlərinin nəşri tarixi» adlı məqaləsini çap etdirib. «Azərbaycan satirik mətbuatında gizli imzalar (1906-1920)», Biblioqrafik göstəricisini (18 m.v) nəşrə hazırlayıb. Nəşrin redaktoru prof. Z.Əsgərli, rəyçiləri f.ü.f.d. Aslan Salmansoy və Şahbaz Şamıoğludur.

*F.ü.f.d. Güldəniz Qocayevanın* «Hüseyn Cavidin yaradıcılığında turançılıq» məqaləsi «Ədəbiyyat məcmuəsi»nin XXXII cildində, «Xortdanın Cəhənnəm məktubları», f.ü.f.d. Nəzakət Qafqazlının Ə.Haqverdiyev və teatr» məqalələri «Əbdürrəhim bəy Haqverdiyevin həyat və yaradıcılığı» monoqrafiyasında çap olunub. *F.ü.f.d. Solmaz Həyatova* «Əbdürrəhim bəy Haqverdiyev» monoqrafiyasında «Elmi-pedaqoji fəaliyyəti» məqaləsini, «Xalid Xürrəm Səbribəyzadənin yaradıcılığında ailə-məişət məsələləri» məqaləsi Qazaxıstanın Astana şəhərində keçirilmiş III Forumun sənədlərində çap olunub (Astana, 2018).

2018-ci ildə *f.ü.f.d. Lütfiyyə Əsgərzadənin* «Hüseyn Cavid: mühiti və müasirləri» monoqrafiyası (Beynəlxalq Onlayın nəşriyyat) Qlobe Edit, 2018) çapdan çıxıb. Nəşrin ön söz müəllifi akademik İsa Həbibbəyli, elmi redaktoru prof. Zaman Əsgərli, rəyçiləri Əlizadə Əsgərli, Əbülfəz Qarayev və İslam Qəribovdur. Kitabda fəlsəfi-müdrik şeirimizin ustadı, mənzum dramaturgiyamızın banisi Hüseyn Cavid irsinin sistemli elmi tədqiqi, sənətkarın iyirminci əsrdəki mürəkkəb sosial-siyasi və mədəni mühitinin öyrənilməsi, habelə, şairin müasirlərinin həyatı və yaradıcılığına elmi-tənqidi baxışı əhatəli ifadəsini tapıb.

Müəllifin bu ildə yerli mətbuatda 10, xarici mətbuatda 12 məqaləsi çap edilib. «Hüseyn Cavid Məhəmməd Əmin Rəsulzadənin təhlilərində» – Cümhuriyyətin 100 illiyinə həsr edilmiş məqaləsi «Dünya azərbaycanlıları: tarix və müasirlik» mövzusunda konfransın materiallarında, yenə onun «Ülvi Bünyadzadə: Şəxsiyyəti və ədəbi irsi» adlı beynəlxalq elmi konfransının materiallarında «Ülvi Bünyadzadə yaradıcılığında yol və yolçu», «Turan Cavid – zamanın taleyini yaşayan xanım» məqaləsi («Ədəbiyyat qəzeti», 15 sentyabr 2018) yerli mətbuatda, xaricdəki məqalələri isə Daşkənd, Ankara, İstanbul şəhərlərindəki jurnallar və simpoziumun materillarında nəşr edilib.

*F.ü.f.d. Arzu Hacıyeva* «Mirzə Fətəli Axundzadə Ensiklopediyası»nın hazırlanması, AXC-nin 100 illiyi münasibətilə BDU-nun keçirdiyi Beynəlxalq Elmi Konfransda, Abdulla

Şaiq və Hüseyn Cavidin Mənzil Muzeylərinin keçirdiyi respublika konfransında iştirak edib, materiallarda məruzələrinin mətnləri çap olunub.

A.Hacıyevanın «Əbdürrəhim bəy Haqverdiyevin ədəbi görüşləri» adlı məqaləsi «Əbdürrəhim bəy Haqverdiyev. Həyatı və yaradıcılığı» kitabında çap olunub. O, A.Şaiqin «Türk çələngi» dərsliyini transfoneliterasiya edib. A.Hacıyeva «Şaiq nümunə məktəbi – 100» kitab-albomunun tərtibçilərindən biri və ön söz müəllifidir.

*F.ü.f.d. Səadət Vahabovanın* «Ömər Faiq publisistikasında dil məsələsi» adlı məqaləsi «Yeni Türkiyə Strateji Araşdırma Mərkəzi, Ankarada, Müasir satira və ya satirasızlıq xülasəsi IV Uluslararası Türk Kültür coğrafiyasında egitim və sosial bilimlər simpoziumunun materiallarında (Bakı, 28-30 hərizan 2018), «Ömər Faiq yaradıcılığında dil köklü bir mədəniyyətin təcəssümü kimi» Ümummilli lider Heydər Əliyevin 95 illiyi münasibəti ilə Azərbaycanşünaslığın aktual problemləri beynəlxalq elmi konfransın materiallarında (3-4 may 2018), «Ə.Haqverdiyev yaradıcılığının dil və üslub məsələləri» məqaləsi «Ə.Haqverdiyev. Həyat və yaradıcılığı» monoqrafiyasında çap edilib.

*F.ü.f.d. Təranə Abdullayeva* il ərzində 7 məqalə, 1 monoqrafiya çap etdirib. O, plan işi üzrə «Mirzə Fətəli Axundzadə ensiklopediyası» üçün «Mirzə Fətəli Axundzadə İstanbulda» və «Məhəmməd ağa Şahtaxtlı Mirzə Fətəli Axundzadə haqqında» məqalələrini və Türkiyədə (Amasiya) «Məhəmməd Əmin Rəsulzadənin hekayələri publisistikasının davamı kimi» məqaləsini çap etdirib.

T.Abdullayevanın «Azərbaycan yazıçıları və Qərb» monoqrafiyasının (Bakı, «Avropa», 2018, 136 s.) elmi redaktoru dos. Səadət Vahabova, rəyçiləri Lütfiyyə Əsgərzadə, f.ü.f.d. Xədicə İsgəndərli və f.ü.f.d. Manaf Səmədzadədir.

Monoqrafiyada Qərbçilik meyillərinin təşəkkülü, «Əkinçilik və qərbçilik meyilləri», XX əsrin əvvəllərində bədii ədəbiyyatımızdakı Qərb təsirləri, romantiklər və Qərbçilik, Ə.Ağaoğlunun qərbçilik meyilləri və dini-fəlsəfi görüşləri, bədii tərcümənin Qərb mədəniyyətinin öyrənilməsində rolu, Y.V.Çəmənzəminlinin Qərbə münasibəti, M.Şahtaxtlının Milli tərəqqi konsepsiyası, pubilisistin görüşlərində Cənubi Azərbaycan mövzusu, habelə, linqvistik görüşlərinin sosial-siyasi və kulturoloji aspektləri, M.Şahtaxtlı və ana dili, M.Ə.Rəsulzadənin hekayələri və Ə.Haqverdiyevin ictimal fəaliyyəti kimi məsələlər həllini tapıb.

*F.ü.f.d. Mətanət Vahidova* 13 məqalə çap etdirib. Onun «Əbdürrəhim bəy Haqverdiyevin hekayələrində bədii gülüşün səciyyəsi» məqaləsi, «Cümhuriyyət ideologiyası kontekstində filologiya elmi» mövzusunda Respublika Elmi konfransının materiallarında çap olunub (6.04.2018), «Ə.Haqverdiyevin bədii nəsri: hekayələri» məqaləsi «Ə.Haqverdiyevin həyat və yaradıcılığı» monoqrafiyasında, «Mədəniyyətlərarası dialoqda tərcümə mədəniyyətinin yeri: Mirzə Fətəli Axundzadənin tərcüməçilik fəaliyyəti» məqaləsi «Azərbaycan» jurnalında çap olunub (12.12.2018).

*F.ü.f.d. Maral Hüseynova* Xalq Cümhuriyyəti dövründə Azərbaycan və Türkiyə dil və kültürəl əlaqələr» mövzusunda simpoziumunda «Azərbaycan Xalq Cümhuriyyəti dövründə yeni poetik istiqamətlər» adlı məruzə edib, Ə.Abidin 1937-ci ildə Türkiyədə çap olunmuş şeirlər kitabı haqqında məqaləsi «Türk yürdu» dərgisində çap olunub.

*F.ü.f.d. Sevil Qaraşovanın* «XX yüzil Azərbaycan fikir tarixində Əli bəy Hüseynzadənin yeri» məqaləsi «Kamil Vəlinin 70 illiyinə Ərməğan dərgisində çap olunub.

2018-ci idə *Elmira Qasımova və Nəzakət Qafqazlı* Respublika Həmkarlar İttifaqı Konfederasiyasının Fəxri Fərmanına layiq görülüb.

2018-ci ildə *prof. İslam Qəriblinin* humanitar təmayüllü fakültələrin bakalavr və magistr pilləsinin tələbələri üçün dərs vəsaiti kimi hazırlanmış «XX əsr Azərbaycan romantizminin tədrisi» monoqrafiyası (Bakı, «Elm və Təhsil», 2018, 224 s.) çap olunub. Monoqrafiyanın elmi redaktoru prof. Yadulla Ağazadə, rəyçiləri prof. Asif Rüstəmli, dos. Aslan Salmansoy, dos. Qədim Rutullayev və dos. Əlizadə Əsgərlidir.

Tədris üçün nəzərdə tutulmuş dərs vəsaiti ilə tələbə, magistr, dissertant və doktorantlar tanış ola bilər. Dərs vəsaitindən «Xüsusi kurs» və «Seçmə fənlərin» tədrisində də istifadə etmək olar.

**Hazırladı: Əlizadə Əsgərli**

AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya elmləri doktoru, professor

**İslam Qəribli**

Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor